

# Quran Elmləri
# İlə Tanişliq

Seyid Azər Əhmədov

Al-Mustafa International
Translation and Publication Center

## NAŞİRDƏN

İslam və beynəlxalq əlaqələrin qloballaşdığı bir dövrdə, müsəlman alimlər yeni məsələlər və məsuliyyətlərlə üzləşməli oldular. Belə ki, bu gün ölkələrdə din və ənənəvi qaydalarla yaşamaq, öncələrə görə daha da çətinliklərlə üzləşdiyindən, günün tələblərinə uyğun, eyni zamanda İslam həqiqətlərinə əsasən, yeni araşdırmalara ehtiyac duyuldu. Təbii ki, hər bir sahədə dəqiq, hərtərəfli və təhriflərdən uzaq nizamlı tədqiqatın aparılması və bu sahədə güclü araşdırmaçıların yetişdirilməsi, hər zaman bütün haqsevənlərin diqqət mərkəzində olmuşdur. Lakin sivilizasiyaların toqquşduğu bir zamanda, elmi həqiqətlərə və mənəvi dəyərlərə önəm verən insanların, qərəzsiz və aydın biliklərə daha artıq maraq göstərməsi, vicdanlı araşdırmaçıların məsuliyyətini bir o qədər də artırdı.

Sözsüz ki, təhsil mərkəzlərinin inkişafı, dinamik, mütərəqqi və intizamlı təhsil sisteminə bağlıdır. Bu səbəbdən, təhsil və tədqiqat metodlarına yenidən baxış keçirmək və onları günün nəbzinə görə səliqə-sahmana salmaq, elmi tərəqqini sürətləndirməklə birgə, elmi mərkəzlərdə mütaliə və yeni araşdırmalar üçün şövq və stimul yaradır.

Beləliklə, "Beynəlxalq əl-Mustafa Universiteti" həqiqət və səadət yolunun tərəfdarı kimi, qeyri-iranlı tədqiqatçıların akademik araşdırmalarını himayə etməyi və onların elmi əsərlərini ərsəyə gətirməyi özünə ülvi bir hədəf olaraq təyin etmişdir.

# MÜNDƏRİCAT

**ÖN SÖZ** ... **11**

**DƏRSİN METODİKASI** ... **15**
a) Kitabın məzmunu ... 15
b) Kitabın üslubu ... 16
c) Kitabın oxuyucuları ... 16
d) Kitabın xüsusiyyətləri ... 16
e) Kitabın əsas mənbələri ... 17

**DƏRS 1: QURAN ELMLƏRİ İLƏ TANIŞLIQ** ... **19**
Giriş ... 19
Quran elmlərinin tərifi ... 19
Quran elmlərinin hədəfi ... 20
Quran elmlərinin əhəmiyyət və zərurəti ... 20
Quran elmlərinin tarixçəsi ... 20
Quranın mahiyyəti ... 22
Quranın leksik mənası ... 22
Quranın terminoloji mənası ... 23
Quranın ünvanları ... 23
Quranın adları ... 23
Quranın sifətləri ... 25

**DƏRS 2: VƏHY** ... **29**
Giriş ... 29
Vəhyin mahiyyəti ... 29
Vəhyin lüğətdəki mənası ... 29
"Vəhy"in terminoloji mənası ... 30
Quranda vəhy və onun növləri ... 30
Risalət – peyğəmbərlik üçün olan vəhyin növləri ... 32
Peyğəmbərlərə vəhy olunmasının mümkünlüyü ... 33

**DƏRS 3: QURANIN NAZİL OLMASI** ... **37**
Giriş ... 37

Nazilolmanın mahiyyəti ........ 37
Quranın nazil olması ........ 37
Quranın nazilolma növləri........ 38
1. Quranın bütövlükdə nazil olması ........ 39
2. Quranın tədricən nazil olması ........ 39
Nazilolma müddəti........ 40
Vəhyin nazilolma keyfiyyəti ........ 43
Quranın tədrici nazil olmasının fəlsəfəsi........ 43
Nazilolma səbəblərini (səbəbi-nüzul) tanımağın əhəmiyyəti ........ 44
Nazilolma səbəbi ilə nazilolma şəninin fərqi ........ 45
“Tənzil və təvil” ........ 47
**DƏRS 4: QURANIN HİSSƏLƏRİ, MƏKKİ VƏ MƏDƏNİ AYƏ VƏ SURƏLƏR ........ 49**
Giriş........ 49
Quranın surə və ayələri ........ 49
Quranın surələrə bölünməsinin fəlsəfəsi ........ 50
Surələrin adlarının “toqifi” və ya “ictihadi” olması ........ 53
SURƏLƏRİN MƏKKİ VƏ MƏDƏNİ OLMASI ........ 57
Surələrin məkki və mədəni bölgüsünün etibarlılıq dərəcəsi........ 57
Surələri məkki və mədəniyə bölməyin faydaları........ 58
**DƏRS 5: QURANIN YIĞILMASI VƏ TƏLİFİ ........ 63**
Giriş........ 63
Quranın toplanması və yazılması ........ 63
Surə və ayələrin tərtibinin “toqifi” və ya “ictihadi” olması........ 64
İmam Əlinin (ə) Quranı toplaması ........ 64
Həzrət Əlinin (ə) müshəfi və onun aqibəti ........ 65
Səhabələrin müshəfləri........ 66
I və III xəlifənin dövründə Quranın toplanması........ 66
III xəlifə Osman ibn Əffan zamanında Quranın toplanması ........ 67
Müshəflərin eyniləşdirilməsi........ 68
Bu proqramın yerinə yetirilmə mərhələləri ........ 68
Osmani (Osmanamənsub) müshəflərinin sayı........ 68
Osmani müshəflərin ümumi xüsusiyyətləri........ 69
Osmani müshəflərin taleyi ........ 70
Rəsmi müshəflərin qorunması ilə bağlı İmamların (ə) mövqeyi ........ 70
Quranın yazı üslubu, nöqtə və hərəkələrin tarixi........ 71
Quranın orfoqrafiyası ........ 72
**DƏRS 6: QURANIN QİRAƏTLƏRİ........ 77**
Giriş........ 77
Qiraətin tərifi........ 77
Nazilolma əsrində qiraət və qiraətlərin meydana gəlməsi........ 77
Qiraətdə ixtilafların səbəbləri........ 78
Yeddi qari........ 79
Yeddi hərf ........ 79

Qurani-kərimin yeddi hərf (qiraət) əsasında nazil olması ........ 79
Qiraətlərin düzgünlük meyarı ........ 81

**DƏRS 7: QURANDA NƏSX ........ 83**
Giriş ........ 83
Nəsxin tərifi ........ 84
Nəsxin şərtləri, nasix və mənsux ........ 84
Quranın nəsxi ilə bağlı müxtəlif təsəvvürlər ........ 85

**DƏRS 8: MÖHKƏM VƏ MÜTƏŞABİH ........ 95**
Giriş ........ 95
"Möhkəm" və "mütəşabih"in tərifi ........ 96
Qurandakı təşabühün qismləri ........ 97
Təşabühün (oxşarlılığın) səbəbləri ........ 98
Təfsir və təvil (ayəni əslinə qaytarmaq və təşabühü aradan qaldırmaq) ........ 99
Mütəşabihlərin təvilini kim bilir? ........ 100
Quranda mütəşabih ayələrin mövcud olmasının fəlsəfəsi ........ 101
Mütəşabih ayələrin nümunələri: ........ 102
Allahın sifət və işlərində ........ 102
Camal və Cəlal sifətləri ........ 102
Allahı görmək məsələsi ........ 104
Bədən üzvləri ........ 106
Təhəyyüzün inkarı ........ 106
İradə və ixtiyar ........ 107
QURANDA "MÜQƏTTƏƏ" HƏRFLƏRİ ........ 108
"Müqəttəə" hərflərinin sayı ........ 108
Qurandakı müqəttəə hərfləri ilə bağlı müxtəlif nəzərlər ........ 109

**DƏRS 9: QURANIN ECAZKARLIĞI ........ 113**
Giriş ........ 113
Möcüzənin tərifi ........ 114
Möcüzə sözünün lüğətdəki mənası: ........ 114
Möcüzə sözünün terminologiyadakı mənası: ........ 114
Möcüzənin zəruriliyi ........ 115
Əbədi möcüzə ........ 116
Möcüzənin növləri ........ 117
Quranın ecazkarlıq cəhətləri ........ 118
1. Quranın bəyan baxımından möcüzə olması ........ 118
a) Sözlərin seçimi ........ 118
b) Quranın ahəngindəki nəzm ........ 120
c) Mövzuların vəhdəti (ayələrin mənəvi mütənasibliyi) ........ 121
2. Quranın elmi ecazkarlığı ........ 121
a) Hündürlüyün artması ilə nəfəs almağın çətinləşməsi ........ 122
b) Hava qatı olan atmosfer yeri qoruyan bir örtükdür ........ 124
c) Kainatda olan varlıqların zövciyyət (cütlük) məsələsi ........ 124
3. Quranın qanunların təyin edilməsi ilə bağlı möcüzəsi ........ 124

a) Allahın camal və cəlal sifətləri ... 126
b) İslami hökmlərin əhatəli olması ... 127
Digər möcüzələrlə müqayisədə Quranın özünəməxsus ecazkarlığı ... 128
Quranın "təhəddi" etməsi (mübarizəyə çağırması) ... 128
Mübarizəyə dəvətin mərhələləri ... 129

**DƏRS 10: QURANIN TƏHRİF OLUNMAMASI ... 133**
Giriş ... 133
"Təhrif" lüğəvi baxımdan ... 133
"Təhrif" terminoloji baxımdan ... 134
1. Kəlamın dəlalət etdiyi şeydə təhrif ... 134
2. Hansısa bir ayə və yaxud da surəni nazilolma ardıcıllığının əksinə olaraq müshəfdə yerləşdirmək ... 134
3. Məşhur qiraətin əksinə olan qiraət ... 134
4. Qüreyş ləhcəsinin əksinə olan qiraət ... 134
5. Sözlərin dəyişdirilməsi ... 134
6. Qurana nəyisə əlavə etmək ... 134
7. Qurandan nəyisə azaltmaq ... 135
Təhriflə bağlı yaranmış düşüncənin mənşəyi ... 135
Quranın təhrif olunmamasına dair dəlillər ... 136
1. Tarixin şahidliyi ... 136
2. Quranın təvatürlüyünün zəruriliyi ... 136
3. Quranın möcüzə olması məsələsi ... 137
4. İlahi zəmanət ... 137
5. Hədislər ... 138
6. Əhli-beytin (ə) nəssi (aşkarcasına bəyanı) ... 138
7. Bu haqda böyük şiə və sünni alimlərinin nəzəri ... 138

**DƏRS 11: QURAN HEKAYƏLƏRİ ... 141**
Giriş ... 141
Dini hədəflər üçün hekayələrdən istifadə etmək ... 141
Quran hekayələrinin xüsusiyyətləri ... 142
Quran hekayələrinin digər səmavi kitablardakı hekayələrlə fərqi ... 143
Hekayənin hədəfləri ... 144
Quranda hekayələrin təkrarlanması ... 147

**DƏRS 12: MƏSƏL VƏ ANDLAR ... 149**
Giriş ... 149
Quran məsəllərinin hədəfi ... 149
Təmsilin xüsusiyyətləri ... 150
Quranda təmsil növləri ... 150
a) Zehni məfhumların hiss olunacaq şəkildə gəlməsi ... 151
b) Ruhi və mənəvi halın təcəssümü ... 151
c) İnsanlıq modellərinin təsviri ... 152
d) Cari hadisələrin təsviri ... 152
e) Real keyfiyyətlərin təsviri ... 153

Quranda məsəl........................................................................................................ 153
QURANIN ANDLARI ............................................................................................ 156
Andın ədatları........................................................................................................ 156
Quranda andların növləri...................................................................................... 157
Quranda andın elementləri ................................................................................... 158

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ....................................................................... 165**

# ÖN SÖZ

*Bağışlayan və mehriban Allahın adı ilə.*

*Həmd olsun aləmlərin Rəbbinə.*

*Allahın salamı, salavatı olsun Məhəmməd (s) peyğəmbərə və onun pak Əhli-beytinə.*

﴿إِنَّ هَذَا الْقُرْآنَ يَهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ﴾

*"Həqiqətən bu Quran ən möhkəm və sabit yola (dinə) hidayət edir...".*[1]

Bəşərin real həyat proqramı sayılan Quran hidayət kitabı olması və ilahi maarifi özündə ehtiva etməsi sayəsində qəlbləri özünə cəlb etmiş, öz mənəvi hərarəti ilə insanlarla mənəvi ünsiyyət yarada bilmişdir. Bundan əlavə Quranın elmi, metafizik və sirli bilgiləri İslam cəmiyyətlərində, eləcə də qeyri-islami toplumlarda elm adamları, din araşdırmaçıları və həqiqət axtaranların diqqət mərkəzində qərarlaşmaqdadır.

Quran həzrət Məhəmmədin (s) ən böyük möcüzəsi, İslamın canlı və əbədiyaşar sənədidir. Endiyi gündən etibarən öz əsalətini (orijinallığını) qoruyub saxlamış və qiyamətədək toxunulmaz qalacaq tək səmavi kitabdır. Quran ilahi vəhyin əlimizdəki yazılı nüsxəsi olduğu üçün bu müqəddəs kitab ətrafında bəhs etmək Allahıtanıma mövzusunda böyük əhəmiyyət daşıyır, belə ki, xalis ilahi söz və məqsədlərlə yaxından tanış oluruq.

İnsan, mənəvi və maddi ünsürdən təşkil olunmuş bir varlıqdır. O, maddi olaraq yaradılsa da, – *"Şübhəsiz, insanı xalis gildən yaratdıq!"*[2] – özündə ilahi xislət və əxlaqı ehtiva edir – *"Ona Öz ruhumdan üfürdüm"*[3].

Maddi ləzzətlərin qısa müddətdə və asanlıqla qazanılması, habelə bu

---

1. "İsra" surəsi, ayə 9.
2. "Muminun" surəsi, ayə 12. ﴿وَلَقَدْ خَلَقْنَا الْإِنْسَانَ مِنْ سُلَالَةٍ مِنْ طِينٍ﴾
3. "Hicr" surəsi, ayə 29. ﴿فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِنْ رُوحِي فَقَعُوا لَهُ سَاجِدِينَ﴾

ləzzətin əldə edilməsindən razı qalmaq kimi amillər insanın maddiyyata daha çox önəm verməsinə və nəticədə Allahı unutmasına şərait yaradır. Bu təhlükəni aradan qaldırmaq və insanı sırf maddiyyata diqqətdən ayırıb, nəzərini ali üfüqlərə yönəltməsi üçün Allah-taala bəşərin hidayətindən ötrü bir sıra həqiqəti əks etdirən müxtəlif dəlillər göndərmişdir. O cümlədən, peyğəmbərlər, ilahi övliyalar, məsum imamlar, səmavi kitablar, təbiətin yaradılışı və s. Səmavi kitablar, heyvansayağı və ötəri mühitdən əbədi aləmə yönəlmələri üçün insanlara göndərilən "həyat üçün təlimat kitabçası" ünvanındadır.

Bəşər, tərəqqiyə çatmasına, müxtəlif elm və texnikalara yiyələnməsinə rəğmən, insanın fitrətindən doğan şəxsiyyətə təzim meylinin daimiliyi danılmaz bir həqiqətdir. Bəşərin təzim və ehtirama layiq bildiyi varlıq və şəxsiyyət, fərqli formalarda pərəstiş olunan həmin Allahdır.

Bu fitri ehtiyac habelə kamal, elm, haqq, həqiqətsevərlik kimi digər fitri ehtiyaclarla birləşdikdə onun qarşısına qoyduğu məqsəd, bütün gözəllik və kamillikləri özündə birləşdirən Allah olacaqdır. Bəs, Allahı tanımanın, Allaha yönəlmənin yolu nədir?

Sözsüz ki, Allahı onun öz dilindən tanımaq, ünvanını özündən almaq, yola özü bələdçilik etməsi ən məqsədəuyğun variantdır. Bütün bunlar isə təbii ki, Allahın müsəlmanlara minnət qoyaraq göndərdiyi ən kamil və sonuncu kitab Qurani-kərimdir. Hansı ki, Allahın kəlamıdır, bəndəsi ilə birbaşa ünsiyyət vasitəsidir. Biz Allahı tanımaq, ona varmaq və fitri ehtiyaclarımızı təmin etmək istəyiriksə, ilk növbədə Quranı tanımalıyıq. Onu öyrənib həyati proqramlarını həyatımıza tətbiq etməliyik ki, qısa ömrümüz müddətində uzun yolu vaxtında başa vura bilək. Əks təqdirdə, Allahın ali nemətinə naşükürlük etməklə yanaşı, özümüzü də ali hədəflərdən geri qoymuş olarıq. Hətta buna görə ilahi əzabın bizi tutması da labüddür.

Biz müsəlmanların Quranı diqqətdə saxlaması, əslində düzgün Allahıtanıma yollarına yönəlmək, digər tərəfdən şirk və nadanlıqdan uzaqlaşmaqdır. Qurana əhəmiyyət vermək və onu öyrənmək fironsayağı, allahvari yaşamı inkar etməkdir. Quranı öyrənməyin ən mühüm hədəfi, şübhəsiz elə budur. Quranın təfəkkür və idraka hədsiz diqqəti və idrak vasitəsilə insanın təkamülü nazil olmanın başlıca məqsədlərindəndir. Ona görə də biz hər keçən gün Qurandan möhkəm yapışmalı və allahçı olmağın yollarını zikr əhlindən – *"Zikir əhlindən soruşun!"* – soruşmalıyıq. Bəlkə bununla hər keçən gün Quranın göstərişlərinə, tərbiyə prinsiplərinə əməl etməkdə səy göstərək.

Bu arada, Quranın dərin maarifinə baş vurmazdan öncə vəhy, Quran, onun nazil olması və toplanmasından, tarixindən və digər mövzulardan bəhs edən Quran elmləri ilə tanışlıq önəmli və bir o qədər də vacibdir.

**Seyid Azər Əhmədoğlu**
**Qum, 2017**